

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 92 (20.993)

16 may 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Türkiyənin Manisa şəhərindəki kömür mədənində baş vermiş qəzada həlak olanların xatirəsi anılmışdır



Qardaş Türkiyənin Manisa şəhərindəki kömür mədənində baş vermiş qəza çox sayda insanın həlak olması və yaralanması ilə nəticələnmişdir. Bununla əlaqədar Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş Konsulluğunda anım tədbiri keçirilmiş, xatirə dəftəri açılmışdır.

Mayın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğuna gəlmişdir.

Ali Məclisin Sədri kömür mədənində baş vermiş qəza barədə xəbərin bütün Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında dərin sarsıntı ilə qarşılandığını, böyük kədər hissi doğurduğunu diqqətə çatdırmışdır. Ali Məclisin Sədri Türkiyə dövlətinə və xalqına başsağlığı vermiş, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulamışdır.

Türkiyənin Naxçıvandakı Baş konsulu Əli Rza Akıncı Naxçıvan Muxtar Respublikasında faciə qurbanlarının xatirəsinə verilən yüksək qiymətə görə minnətdarlıq etmiş, bunu Azərbaycan-Türkiyə dostluq və qardaşlığının daha bir ifadəsi kimi dəyərləndirmişdir.

Sonra Ali Məclisin Sədri Baş Konsulluqda açılan xatirə dəftərini yazmışdır.

Naxçıvan şəhərindəki məscidlərdə Türkiyənin Manisa şəhərindəki kömür mədənində baş vermiş qəza ilə əlaqədar xatirə duaları oxunacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beynəlxalq Ailə Günü qeyd edilib



*Mayın 15-də Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan şəhərindəki "Təbriz" mehmanxanasında tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə muxtar respublikanın müxtəlif təbəqələrindən olan nümunəvi ailələr iştirak ediblər.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov, əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış ediblər. Çıxışlarda bildirilib ki, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1993-cü ildə hər il mayın 15-nin "Beynəlxalq Ailə Günü" kimi qeyd olunması barədə qərar qəbul edib. Məhz həmin tarixdən etibarən hər il may ayının 15-i bütün dünyada "Beynəlxalq Ailə Günü" kimi qeyd olunur.

Vurğulanıb ki, ailə dəyərləri hər zaman xalqımızın milli düşüncəsində ən yüksək yer tutub. Buna görə də uzaq keçmişdən ölkəmizdə ailənin qurulmasına mühüm hadisə kimi yanaşılıb, onun təməlinin möhkəm olmasına çalışılıb. Ötən əsrin 70-ci illərindən başlayaraq xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən ailə dəyərlərinin də daxil olduğu milli dəyərlərimizin qorunub-yaşadılması diqqət mərkəzində saxlanılıb. Müstəqilliyimizin bərpasından sonra isə ölkəmizdə ailə problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilib, müvafiq qanunvericilik bazası yaradılıb.

Qeyd olunub ki, bu gün muxtar respublikamızda dövlət ailə siyasəti uğurla həyata keçirilir. Hazırda muxtar respublikada 92 min 631 ailə yaşayır və bütün kateqoriyadan olan ailələr hərtərəfli diqqət və qayğı ilə əhatə olunublar. Ailələrin sosial rifahının yaxşılaşdırılması üçün müxtəlif meyarlar üzrə müavinətlər, ünvanlı sosial yardımlar təyin olunur. Gənc ailələrin mənzilə olan ehtiyaclarını təmin etmək üçün yeni yaşayış binaları tikilir. Bundan əlavə, muxtar respublikada yaşayan uzunömürlü ailələrin yubileyləri qeyd edilir, onlara müxtəlif hədiyyələr verilir.

Tədbirdə iştirak edən ailələrin nümayəndələrinin ürək sözləri dinlənilib, onlara hədiyyələr paylanılıb.

Sonra Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu tərəfindən orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda yazı və rəsm müsabiqəsinin qalibləri mükafatlandırılıb. Yazı müsabiqəsi üzrə Naxçıvan Özəl Universitetinin tələbəsi Şahnaz Seyidova III, həmin universitetin digər tələbəsi Nərmin Mərdanlı II, Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi İnci Əsgərzadə I yerə; eyniadlı rəsm müsabiqəsi üzrə Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Könül Mərdanova III, Naxçıvan Dövlət Universitetinin tələbələrindən Turanə Hüseynova II, Fatma Məmmədli isə I yerə layiq görülüblər. Qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıb.

Tədbirdə Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Şəlalə" instrumental ansamblının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs qrupunun, nümunəvi musiqiçi ailələrin və Naxçıvan şəhərindəki 3 nömrəli uşaq bağçası fidanlarının ifa və çıxışları alqışlarla qarşılanıb.

## Naxçıvan şəhərindəki bələdiyyələrin fəaliyyəti müzakirə olunub

*Naxçıvan Şəhər İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə bələdiyyələrin fəaliyyəti ilə bağlı maarifləndirici tədbir keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açıb.*



Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxışında bildirib ki, ölkəmizdə yerli özünüidarə institutunun yaradılması və onlara verilən imtiyazlar xalqımızın rahat yaşayışını təmin etmək məqsədinə xidmət edir. Bu sahənin inkişaf etdirilməsi məqsədilə dövlətimiz tərəfindən qanunvericilik aktları qəbul edilir, bələdiyyələrə hüquqi yardımlar göstərilir və onlar üçün müasir iş şəraiti yaradılır. O cümlədən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq bələdiyyələrə metodik köməkliklər göstərilir, hüquqi maarifləndirmə tədbirləri keçirilir, yerlərdə birgə seminar-müşavirələr təşkil edilir.

Ədliyyə naziri vurğulayıb ki, Naxçıvan şəhərində də keçirilən bu cür seminar-müşavirələrin əsas məqsədi bələdiyyələrin fəaliyyətində işin düzgün təşkil edilməsi, bələdiyyələrin vəzifəli şəxsləri tərəfindən qanunvericiliyin tələblərinin öyrənilməsi və tətbiq edilməsi, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulmasına köməklik göstərilməsindən ibarətdir.

"Naxçıvan şəhəri ərazisində fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə 2009-2013-cü illər ərzində şəhər İcra Hakimiyyəti ilə birlikdə 16 dəfə araşdırmalar aparılıb və aşkar olunan nöqsanların aradan qaldırılması üçün hərtərəfli metodik köməkliklər göstərilib", – deyən Suliddin Əliyev buna baxmayaraq hələ də bəzi bələdiyyələrin fəaliyyətində nöqsan və çatışmazlıqların olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, bu gün bələdiyyələrin normal fəaliyyəti üçün yaradılmış iş şəraitinin, habelə onlara göstərilən qayğının müqabilində bələdiyyələr işlərini düzgün qurmalı, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər.

Tədbirə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yekun vurub.

## Milli ailə modeli: Naxçıvanda tarixi ənənə və ağsaqqallıq institutu

*BMT Baş Assambleyasının 1993-cü ildə qəbul etdiyi qərara əsasən, 1994-cü ildən başlayaraq 15 may günü hər il dünyada "Beynəlxalq Ailə Günü" kimi qeyd olunur. Bu münasibətlə Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Şəhər Təşkilatının Qadınlar Şurası tərəfindən "Milli ailə modeli: Naxçıvanda tarixi ənənə və ağsaqqallıq institutu" mövzusunda dəyirmi masa təşkil edilmişdir.*

Dəyirmi masanı giriş sözü ilə açan YAP Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayeva qeyd etmişdir ki, Azərbaycan xalqı özünün milli-mənəvi dəyərləri əsasında formalaşdırdığı ailə modelini əsrlərin sınağından keçirərək bu gün də müasir cəmiyyətin əsas özəyi kimi qoruyub saxlaya bilmişdir. Ölkəmizdə ailəyə daim müqəddəs ocaq kimi yanaşılmış, ailə sahibi olmaq, övlad böyüdüb tərbiyə etmək ən mühüm insanlıq vəzifələri sayılmışdır. Bu mənada xalqımıza məxsus ən gözəl xüsusiyyətlərdən biri olan böyüyə, ağsaqqala hörmətlə yanaşmaq ənənəsi bütün ailələrimizdə bu gün də qorunub saxlanılan mühüm milli-mənəvi dəyərlərimizdəndir.



Dəyirmi masada iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Vəkillər Kollegiyasının, İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının, Naxçıvan Şəhər Statistika İdarəsinin nümayəndələri, YAP Naxçıvan Şəhər Təşkilatı Şurasının, Qadınlar Şurasının üzvləri, fəal ictimaiyyət nümayəndələri olan qadınlar mövzu ətrafında maraqlı fikirlər səsləndirmişlər. Qeyd edilmişdir ki, müasir inkişaf mərhələsində xalqımıza məxsus olan ailə dəyərləri qorunub saxlanılmalı, ailənin müqəddəsliyi hifz edilməlidir. Bu gün Naxçıvan Muxtar Respublikasında dövlət səviyyəsində ailələrin mənafeyinin qorunması, gənc ailələrin sosial problemlərinin həlli, uzunömürlü ailələrə daim qayğı ilə yanaşılması artıq ənənə halını almışdır. Bu qayğı həm də yeni nəslin milli ailə modelinin yüksək mənəvi keyfiyyətlər aşılayan nümunəsində tərbiyə edilməsi perspektivini nəzərdə tutur.

Dəyirmi masaya YAP Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli yekun vurmuşdur.

## Şərur rayonunda quruculuq tədbirlərinin həcmi bu il bir qədər də artıb

*Naxçıvan şəhərindən tutmuş ən uzaq dağ və sərhəd kəndlərinədək geniş vüsəti ilə diqqəti çəkən quruculuq tədbirlərinin həcmi Şərur rayonunda da 2014-cü ildə xeyli artıb. Hazırda rayon mərkəzində, Cəlilkənd, Kürkənd, Diyadin, Püsyan, Dizə yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri həyata keçirilir.*

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin bir qrup inşaatçısı Şərur şəhərinin Nəriman Nərimanov küçəsindəki 18 mənzilli yaşayış binasının yenidən qurulması ilə məşğuldur. Yeni layihəyə əsasən, binanın mənzil sahəsinin artırılması nəzərdə tutulub. Adıçəkilən idarənin inşaatçıları digər quruculuq tədbirlərində də fəallıq göstərirlər. Rayon mərkəzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat, imtahan və texniki baxış şöbəsinin Şərur rayonlararası müayinə və diaqnostika mərkəzi üçün yeni bina inşa olunur, altopu oyunları idman meydançası təmir edilir.

Quruculuq tədbirlərindən biri yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin Cəlilkənddəki fəaliyyətini özündə əks etdirən muzey üçün yeni binanın inşa olunmasıdır. Mövcud muzey binası sökülərək müasir arxitektura üslubunda tikilmiş yeni binada əsas inşaat işləri başa çatdırılıb. Hazırda muzeyin daxilində işlər davam etdirilir. Muzey binasına yaxın ərazidə isə xidmət mərkəzi inşa olunur. Kəndin mədəniyyət evinin binası da yenidən qurulur.

Kürkənddə üç mərtəbədən ibarət 216 şagird yerlik məktəb binası, xidmət və kənd mərkəzləri, Diyadində 3 mərtəbədən ibarət 88 şagird yerlik məktəb və kənd mərkəzi tikilir, Püsyanda 630 şagird yerlik məktəb binası, həkim ambulatoriyası və kənd mərkəzi, Dizədə kənd məktəbi yenidən qurulur, həmin yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası inşa olunur.

**Xəbərlər şöbəsi**

Naxçıvan Muxtar Respublikası – 90

# Naxçıvan – Azərbaycanın incisi və qədim mədəniyyətin beşiyi

*Azərbaycan Respublikasının Özbəkistandakı Səfirliyi tərəfindən Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi münasibətilə məqalə hazırlanmışdır. Məqalə azculture.uz saytında yerləşdirilmiş, özbək dilinə tərcümə olunaraq darakchi.uz və sharh.uz saytlarında ixtisarla verilmişdir. Həmçinin məqalənin Özbəkistanın nüfuzlu mətbuat orqanı olan “Darakçi” jurnalının növbəti sayında nəşr olunması nəzərdə tutulmuşdur. Həmin məqalənin tərcüməsini qəzetimizin bugünkü nömrəsində oxuculara təqdim edirik.*



Bu günlərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi geniş qeyd olunur və bu münasibətlə müxtəlif yubiley tədbirləri keçirilir. Son dövrlərdə müasir informasiya və istehsal texnologiyalarının hərtərəfli tətbiqi nəticəsində infrastrukturun inkişafı, həmçinin iqtisadi, sosial və mədəni sahələrdə əldə olunan nailiyyətlər sayəsində bu qədim diyar Azərbaycanın gözəl və inkişaf etmiş regionuna çevrilmişdir.

1924-cü ildə Azərbaycanın tərkib hissəsi kimi yaradılmış Naxçıvan Muxtar Respublikası 90 il ərzində böyük yol keçmişdir. Bu diyarın iqtisadi və mədəni inkişafı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi dövründə – ötən əsrin 70-ci illərindən başlamışdır. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın ən böyük aqrar-sənaye bazası olmuş, yeni istehsal müəssisələri inşa olunmuş, həmçinin təhsil və mədəni obyektlərin inşası genişlənmişdi. Enerji, sənaye və kənd təsərrüfatı məhsullarının istehsal olunduğu muxtar respublika bu gün də ölkənin iqtisadi həyatında fəal iştirak edir. Turizm, səhiyyə və təhsil sahəsində böyük uğurlar əldə olunmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikası inkişaf etmiş infrastrukturu ilə Azərbaycan Respublikasının güclü sənaye mərkəzidir. Bütün bunlar ümummilli lider Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin məntiqi nəticəsidir.

Naxçıvan tanınmış siyasətçilərin, sərkərdələrin, elm və mədəniyyət xadimlərinin vətənidir. Müstəqil Azərbaycan Respublikasının memarı, zəmanəmizin görkəmli dövlət xadimi, dünya miqyasında tanınmış siyasətçi Heydər Əliyevin uşaqlıq və gənclik illəri Naxçıvanda keçmişdir. Bu diyarın yetirmələri arasında neçə-neçə sərkərdələr, elm və mədəniyyət xadimləri, tanınmış şair və yazıçılar, istedadlı aktyor və rejissorlar vardır. Bu torpaq məşhur yazıçı və publisist Cəlil Məmmədquluzadənin, tanınmış şair Əliqulu Qəmküsarın, dahi dramaturq və filosof Hüseyn Cavidin, tənqidçi alim Əziz Şərifin, yazıçı Cəmşid Əmirovun, realist rəssam Bəhruz Kəngərlinin, heykəltəraş Akif Əsgərovun, istedadlı aktyor və rejissorlardan İbrahim Həmzəyevin, Rza Təhmasibin, Zərəş Həmzəyevanın və bir çox başqalarının vətənidir.

Naxçıvan diyarının tarixi çox qədimdir. Buranın tarixi minilliklərlə ölçülür. Bu diyar əsrlərlə biri-birini əvəzləyən qədim sivilizasiyanın beşiyidir. Əfsanələrə görə, Yer üzünü su basarkən Nuh Peyğəmbər məhz Naxçıvanda dayanmışdır. Naxçıvan toponiminin də Nuh Peyğəmbərlə bağlı olduğu deyilir. Naxçıvan – Nuh və çıxan sözlərinin birləşməsindən yaranmış bir toponimdir. Bu torpaq bütün canlıları xilas edən və bəşəriyyətin nicat tapdığı diyardır. Azərbaycan xalqının folklorunda bu hadisə ilə bağlı xeyli əfsanələr vardır. Maraqlıdır ki, Naxçıvanda Nuh Peyğəmbərin adı ilə bağlı çoxlu tarixi yerlər – Nuh Peyğəmbərin türbəsi və sair belə yerlər bu gün xalq tərəfindən ziyarətgah kimi qəbul olunmuşdur.



Əsrlərdən bəri Naxçıvan qədim türk millətinin mənəvi mərkəzlərindən biri olmuşdur. Arxeoloji qazıntılar sübut edir ki, hələ bizim eradan əvvəl əcdadlarımızın məskunlaşdığı bu yerlər qədim sivilizasiyanın formalaşdığı ərazilər olmuşdur. Naxçıvan qədim türk etnik elementlərinin yarandığı bir məkan kimi bu abidələrin günümüzə qədər qorunub saxlanmasında müstəsna xidmətlər göstərmişdir. Bu diyarda aparılan arxeoloji qazıntılar sübut edir ki, türk etnik faktorları qonşu tayfaların məişət və dəyərlərinin formalaşmasına da ciddi təsir göstərmişdir. Naxçıvanda aşkarlanan və tarixi-incəsənət baxımından misilsiz dəyərə malik olan arxeoloji tapıntılar təkcə Azərbaycandakı muzeylərdə deyil, dünyanın bir sıra muzeylərində saxlanılır.

Naxçıvan Azərbaycan dövlətçiliyinin formalaşdığı əsas regionlardan biridir. Artıq ilk orta əsrlərdə burada güclü Azərbaycan dövlətinin özəyini təşkil edəcək dövlətçilik ənənələri formalaşmışdır. XI əsrdə Naxçıvan Səlcuqların paytaxtı olmuşdur. XII əsrdə isə Naxçıvan Atabəylər dövlətinin mərkəzi olmuşdur. Bu, güclü ordu quruculuğu olan və bütün Şərq dövlətlərinə siyasi təsir etmək qabiliyyətli bir dövlət olmuşdur.

Naxçıvan həmçinin incəsənət növlərinin təşəkkül tapdığı və formalaşdığı bir regiondur. Sənətkarlığın müxtəlif növləri, təsviri incəsənət, şəhərsalma ilə yanaşı, bu regionda təkmilləşmiş tikinti texnikası bütün Şərqdə məşhur olmuşdu. Naxçıvanda yaranmış memarlıq məktəbi tədricən Yaxın və Orta Şərq ölkələrində aparıcı məktəbə çevrilmişdir. Naxçıvan memarlıq məktəbinin çiçəklənmə dövrü XII əsrdə olmuş və həmin dövrdə Azərbaycan tarixi abidələrinin bir çoxu inşa edilmişdi. Elə həmin dövrdə konstruksiya və bədii formaların məşhur inşaatçısı Əcəmi Naxçıvani orta əsrlər memarlıq məktəbinin görkəmli nümayəndəsi kimi bütün dünyada məşhurlaşmışdı. Naxçıvandakı məşhur Yusif Küseyiroğlu (1162) və Möminə xatın (1186) türbələri Əcəmi Naxçıvani tərəfindən inşa olunmuşdur. Bu abidələrdə tətbiq olunan orijinal tikinti konstruksiyaları sonradan digər ölkələrdə də tətbiq olunmuşdur. Maraqlıdır ki, Möminə xatın türbəsinin minarəsinin tikintisində tətbiq olunan tikinti üslubundan sonradan Avropa memarlığında, xüsusilə məbədlərin tikintisində istifadə olunmuşdur. Bütün bunlar Naxçıvan memarlıq məktəbinin dünya tikinti mədəniyyətinə bəxş etdiyi töhfələrin bariz nümunəsidir. Naxçıvan memarlıq abidələri təkcə həmin dövrdə qabaqcıl tikinti texnologiyasının tətbiqi ilə deyil, eyni zamanda Şərq ölkələrinə məxsus dekorativ rəng üslubu ilə səciyyəvidir. Məlumdur ki, Naxçıvan memarlıq məktəbinin əsas tikinti materialı bişmiş kərpicdən ibarət olmuşdur. Müxtəlif kərpic formalarından istifadə etməklə naxçıvanlı arxitektorlar binanın fasadında möcüzələr yaratmağa müvəffəq olmuşlar. Bununla yanaşı, digər təbii tikinti materiallarından istifadə etməklə müxtəlif rənglərin maraqlı kompozisiyalarının bəzədiyi Naxçıvan memarlıq abidələri ilə Orta Asiya abidələri arasında oxşarlıq mövcuddur. Hər iki regionun mədəni və saray tikililəri konstruksiya və tətbiqi sənət baxımından xeyli oxşar xüsusiyyətlərə malikdirlər. Ağ və mavi rənglərlə bəzədilmiş sütunlarda təsvir olunan ornamentlər və fiqurlar Naxçıvan və Özbəkistan memarlığının xarakterik xüsusiyyətləridir.



Naxçıvan torpağı lap qədimlərdən Azərbaycan mədəniyyətinin formalaşdığı məkan olmuşdur. Burada memarlıq və xalçaçılıq məktəbi, miniatür işləmələr, bədii yaradıcılıq və dekorativ tətbiqi sənət növləri təşəkkül tapmış və inkişaf etmişdir. Burada istehsal olunan ipək parçalar, məişət əşyaları, həmçinin yerli sənətkarların zərgərlik nümunələri tacirlər və yerli əhali tərəfindən həmişə maraqla qarşılanmışdı. Xalqın dərin yaddaşına əsaslanan və nəsildən nəslə ötürülən sənətkarlıq ənənələri müasir dövrümüzə qədər gəlib çatmışdır. Əsrlərlə formalaşan ənənələr bu gün babaların mirasını şərəflə qoruyan gənc nəsil tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının milli-mənəvi dəyərlərə əsaslanan humanitar-mədəni siyasəti Naxçıvanda davamlı və məqsədyönlü şəkildə həyata keçirilir.

XIX əsrin birinci yarısında Cənubi Qafqazın Rusiya imperiyasına birləşdirilməsindən sonra Naxçıvan öz əhəmiyyətini itirməmişdir. Əksinə, Naxçıvan milli şüurun, maarif və mədəniyyətin formalaşdığı ocaq olmuşdur. Milli maarif hərəkatı burada XIX əsrin sonu, XX əsrin əvvəllərində daha sürəkli vüsət almışdır. Bu dövr milli ruhun oyandığı, mədəniyyətin çiçəkləndiyi dövr kimi xarakterizə olunur. Həmin dövrdə yalnız Azərbaycanda deyil, bütün Qafqaz miqyasında gedən ictimai-siyasi proseslərdə Naxçıvan ziyalılarının aparıcı rolu yaxşı məlumdur. Naxçıvanın tanınmış yazıçıları, publisistləri və mədəniyyət xadimləri maarifçilik ideyalarına əsaslanan milli-demokratik hərəkatın əsasını qoymuşdular.

Azərbaycanın mədəni tərəqqisində naxçıvanlı ziyalılar daim ön sırada olmuşdular. Qeyd etmək lazımdır ki, Azərbaycanda ilk muzey Naxçıvanda yaradılmışdır. Bu, Nehrəm kənd məktəbində müəllim işləyən, tanınmış ədib Cəlil Məmmədquluzadə tərəfindən XIX əsrin sonunda yaradılmış muzey olmuşdur. Bu gün həmin muzey fəaliyyətini davam etdirir.



Naxçıvan teatrı zəngin ənənələri ilə məşhurdur. Gənclik illərində C.Məmmədquluzadə və dövrünün digər tanınmış mədəniyyət xadimləri bu teatrla əməkdaşlıq etmişlər. Azərbaycan mədəni həyatında özünəməxsus rol oynayan Naxçıvan teatrı yarandığı gündən milli demokratik və realistik tendensiyaya əsaslanaraq dini fanatizmə, savadsızlığa qarşı yorulmaz mübarizə aparmış və xalqın ehtiyac və tələbatını səhnələşdirmişdir.

Naxçıvan rəssamlarının ölkənin təsviri incəsənət xəzinəsinə töhfələri əvəzsizdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış naxçıvanlı rəssam Bəhruz Kəngərli rəssamlıq təhsili almış ilk azərbaycanlı rəssam olmuşdur. Azərbaycan mədəni irsinin zənginləşməsində Naxçıvan rəssamlarından Əyyub Hüseynovun, Məmməd Qasımovun, Hüseyn Əliyevin, Akif Əsgərovun xidmətləri əvəzsizdir.

Fəxrlə deyə bilərik ki, bugünkü Naxçıvanımız iqtisadi və elmi-mədəni potensialı ilə Azərbaycanın dinamik inkişaf edən gözəl regionlarından biridir. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri gündən-günə gözəlləşir və inkişaf edir. Son illər ərzində şəhərdə xeyli sayda yeni yaşayış, ictimai və inzibati binalar inşa olunmuşdur. Şəhər nəzərəçarpacaq dərəcədə hüdudlarını genişləndirmişdir. Burada Heydər Əliyev Sarayı, Hüseyn Cavidin məqbərəsi, Naxçıvan Dövlət Universitetinin, Beynəlxalq Hava Limanının, Musiqili Dram Teatrın, Xalça Muzeyinin, Naxçıvan Biznes Mərkəzinin, xəstəxana binalarının və diaqnostika mərkəzinin, həmçinin ümumtəhsil məktəblərinin, kənd mərkəzlərinin binaları və yeni salınmış yollar göz oxşayır. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən, ölkənin iqtisadi potensialının güclənməsinə və xalqın rifah halının yaxşılaşmasına yönələn siyasi kursun Naxçıvanda davamlı həyata keçirilməsini təmin edən muxtar respublika rəhbərliyi hərtərəfli nailiyyətləri təmin etməyə nail olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ali dövlət fəaliyyəti, yorulmaz və yaradıcı əməyi sayəsində muxtar respublikanın iqtisadi, sosial, elmi-texniki və mədəni potensialı gündən-günə artmaqdadır.

Azərbaycanın ən qədim diyarı və minilliklərin izlərini qoruyan Naxçıvanın zəngin tarixi abidələri, geniş turistik imkanları vardır. Naxçıvanın hər daşı, hər qayası canlı tarixdir. Muxtar respublikanın 1170-ə qədər tarixi abidəsindən 56-sı dünya şöhrətli abidələrdir. Bunlardan Möminə xatın, Yusif Küseyiroğlu türbələri, Qarabağlar memarlıq kompleksi, “Quran”da adıçəkilən Əshabi-Kəhf ziyarətgahı, Kültəpə və başqa abidələr turistlərin maraq və diqqətlərini cəlb edir. Naxçıvanın müalicəvi süfrə suları – “Badamlı”, “Sirab” və “Vayxır” mineral suları, Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ müalicəxanası da bu diyarın turizm potensialını daha da zənginləşdirir. Muxtar respublikada mədəni, ekoloji, müalicəvi, ziyarət və digər turizm növlərinin inkişafı üçün zəruri şərait yaradılmışdır.

Naxçıvan zəngin təbiəti, inkişaf etmiş infrastrukturu, təhsil sistemi və iqtisadi potensialı ilə yerli və xarici investorların, iş adamlarının, tələbələrin və turistlərin diqqətini cəlb edir. Bu gün Naxçıvanda müxtəlif beynəlxalq konfranslar, yüksəksəviyyəli iqtisadi və mədəni layihələr, sammitlər və dövlət başçılarının görüşləri keçirilir. Şübhəsiz ki, gələcəkdə də Naxçıvan mövcud imkanlarını daha da genişləndirməklə dünya ictimaiyyətinin diqqət mərkəzində olacaqdır.

## Dövlət qulluqçuları üçün seminarlar davam etdirilir



*May ayının 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Naxçıvan Şəhər Təhsil Şöbəsi, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası, Mərkəzi Seçki Komissiyası və Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsində işləyən dövlət qulluqçuları üçün "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda seminar keçirilib.*

Tədbiri giriş sözü ilə komissiyanın sektor müdiri Arzuman İmanov açıb. Komissiyanın şöbə müdiri Rafiq Nəcəfov çıxış edərək qeyd edib ki, 31 may 2007-ci il tarixdə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qanun dövlət qulluqçuları üçün etik davranış qayda və prinsiplərini, həmçinin onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir. Qanunun birinci maddəsində qeyd olunur ki, etik davranış qaydaları dövlət qulluqçusu statusuna malik olan bütün şəxslərə şamil edilir. Hər bir dövlət qulluqçusu qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu qanunun müddəalarına əməl etməyə borcludur.

Vurğulanıb ki, etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

Analoji seminar mayın 15-də Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Satınalmalar üzrə Dövlət Agentliyi, Dini Qurumlarla İş üzrə İdarə, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti əməkdaşları üçün də keçirilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində növbəti açıq ürək əməliyyatları aparılmışdır

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Mərkəzi Neftçilər Xəstəxanasının kardiocərrahları Kamal Ağarzayev, tibb üzrə fəlsəfə doktorları Seymur Musayev və Fərid Hüseynov Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində yerli həkimlərlə birgə 12 açıq, 1 periferik ürək əməliyyatı aparmışlar. Bu əməliyyatların 3-ü Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin ürək-damar cərrahı İntiqam Fətullayev tərəfindən icra olunmuşdur. Ürəyin işemik xəstəliyi gərginlik stenokardiyası diaqnozu qoyulmuş xəstə Maral Rzayeva angioqrafiya olunduqdan sonra ürək damarlarında ciddi daralmalar müşahidə edilmiş, üzərində aorta koronar şuntlama əməliyyatı aparılmışdır.

Digər xəstələr miokard infarktından sonrakı vəziyyətilə angioqrafiya olunmuş, ürək damarlarında tıxaclar müşahidə edilmiş, ürəyin qulaqcıqlararası arakəsmə defekti aradan qaldırılmışdır. Mərkəzi Neftçilər Xəstəxanasının yüksəkixtisaslı kardiocərrahları İntiqam Fətullayevin apardığı əməliyyatların peşəkar şəkildə həyata keçirildiyindən məmnunluqlarını ifadə etmiş, muxtar respublikanın səhiyyə müəssisələrində yaradılmış belə bir şəraitdə tezliklə bir sıra mürəkkəb əməliyyatların, o cümlədən açıq ürək əməliyyatlarının Bakı şəhərindən gələn həkim briqadaları tərəfindən deyil, yerli kardiocərrahlar tərəfindən müntəmadi şəkildə aparılacağına əminliklərini ifadə etmişlər.

Qeyd edilməlidir ki, açıq ürək əməliyyatlarında yardımçı işlər Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi kardioreanimasiya bölməsinin tibb bacıları tərəfindən həyata keçirilmişdir.

## Orta tibb işçilərinin növbəti sertifikasiya test imtahanında 11 nəfər zəruri həddi keçə bilmədi

*Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir. Məlum olduğu kimi, "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyası"nın aparılmasına 2011-ci ilin sentyabr ayından başlanmış, təkcə keçən il 187 nəfər həkim sertifikasiya imtahanında iştirak etmiş, onlardan 177 nəfəri test imtahanlarını və müsahibə mərhələsini başa vurmuşdur.*

Növbəti test imtahanında isə Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin, Sədərək və Ordubad Rayon Mərkəzi xəstəxanalarının, Naxçıvan şəhər, Ordubad və Kəngərli rayonlarındakı kənd həkim ambulatoriya və feldşer-mama məntəqələrinin 27 orta tibb işçisi öz bilik və bacarıqlarını sınamalı olmuşlar.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında keçirilən test imtahanında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Sertifikasiya İmtahan Komissiyasının sədri Süleyman Cəfərov hazırda dünya tibb elminin böyük uğurlara imza atdığını bildirərək demişdir ki, əvvəlki dövrdə müalicə olunmayan xəstəliklər indi artıq müalicə edilir, yeni təfəkkürə, müasir elmi biliklərə yiyələnən kadrlar yetişir. Kadr potensialının gücləndirilməsi istiqamətində ən önəmli addımlardan biri də tibb işçilərinin sertifikasiyasıdır. İndi bütün qabaqcıl ölkələrdə olduğu kimi, bizim ölkəmizdə də beş ildən bir imtahan verib sertifikat almayan tibb işçiləri praktik fəaliyyətlə məşğul ola bilməzlər. Mərkəzləşdirilmiş qaydada, obyektiv və şəffaf surətdə keçirilən sertifikasiya tibb işçilərinin öz üzərlərində çalışmasına, tibb sənətinin məsuliyyətini daha dərindən dərk etməsinə imkan yaradır. Bu proseslər muxtar respublikamızda da həkimlərin və orta tibb işçilərinin bilik və peşə bacarıqlarının artırılmasını zəruri edir. Sertifikasiya əhaliyə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının artırılması məqsədilə həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən 1000 sual tərtib edilərək kompüterə yerləşdirilmişdir. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 100 sual seçilərək imtahanda iştirak edən orta tibb işçilərinə paylanmış, 3 saat davam edən imtahanın şəffaf, tam obyektiv şəraitdə keçirilməsi təmin edilmişdir.

Test imtahanının yekunlarına görə, mütəxəssislərdən 5 nəfər 90-100, 7 nəfər 80-90, 4 nəfər 70-80 arası bal toplayaraq test imtahanından keçərli sayılmışlar. 11 tibb bacısı isə zəruri həddi keçə bilməmişdir. Sertifikasiya prosesinin müsahibə mərhələsi növbəti on gün ərzində keçiriləcək və bu mərhələdə də uğur qazananlar növbəti beş il üçün sertifikat alacaqlar.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Naxçıvanda bir Novruz həftəsonu

*Bir dəfə Azərbaycan regionlarından olan Naxçıvana səfər etməyi qərara aldım. Onun yerləşdiyi qapalı ərazi məni maraqlandırırdı. Ölkənin bu region ilə tək əlaqə vasitəsi hava nəqliyyatıdır. Azərbaycanın bu bölgəsi 3 dövlətlə – Araz çayı ilə İranla, Zəngəzur dağları ilə Ermənistanla və 12 kilometrdən az məsafədə Türkiyə ilə həmsərhəddir.*

*Elektron poçt vasitəsi ilə orda fəaliyyət göstərən bir turist ofisi ilə əlaqə yaratdım, mehmanxana, nəqliyyat və gəzinti qiymətləri barədə məlumat əldə etdim.*

**Aşqabat-Mary (Türkmənistan)** uçuşunda olduğu kimi, buranın da yerli xətləri qəribə və sadə idi. Buradakı sərnişinlər beynəlxalq xətlərlə uçan sərnişinlərlə heç də eyni deyildir. Qafqazda və Mərkəzi Asiyada hamı yerli hava nəqliyyatından istifadə edir. Avropada belə deyil, adətən, yerli xətlərdən zəngin insanlar, iş adamları teztez istifadə edirlər, digər insanlar isə avtonəqliyyatdan və qatardan istifadə edirlər. Bura isə qatar nəqliyyatı ilə səyahət mövcud deyil. Hazırkı nəqliyyat vasitəsi təyyarədir. Bizimlə bərabər evlərinə qayıdan çoxlu ailələr və hətta yerli turistlər də bayramı keçirmək üçün Naxçıvana gəlirdilər və biz həmin turistlərin bəziləri ilə oteldə və bazar günü Naxçıvandan qayıdarkən təyyarədə rastlaşacaqdıq.

**"Novruz"** inzibati idarələr, banklar, məktəblər və sair üçün istirahət həftəsidir. Uçuş 1 saat idi və bu qısa müddətdə Azərbaycan, İran, yoxsa Ermənistan ərazisi olduğunu bilmədən üzərindən keçdiyimiz dağlara heyran qalmışdıq.

Hava tutqun və buludlu idi, lakin soyuq deyildi və günortadan sonra Günəş çıxdı və bütün həftəsonu hava əla keçdi. Biz Naxçıvandayıq. Ərazi yüksək dağlar və yarımsəhradan ibarətdir. Region yüksəkliyi 2500-4000 metrə çatan zirvəsi qarlı dağlarla əhatələnib.

3 gün bizə bələdçilik və sürücülük edəcək olan Həsən bizi hava limanının qarşısında gözləyirdi. O, ingilis dilində çox yaxşı danışa bilir, təqribən, 25 yaşında gənc biridir. O, bizi müşayiət etdiyi müddətdə maşını ehtiyatla sürür, bizimlə çox incə rəftar edir, şəkil çəkdirmək üçün arzu etdiyimiz yerdə maşını saxlayır, həmçinin səfər proqramımızın tərtibində bizə kömək edirdi. Öz maraqlı söhbətləri və yumorları ilə çox maraqlı biri idi.

Biz çamadanlarımızı oteldəki lüks, sakit bir otağa yerləşdirdik. Çox-çox rahat idi, açığı, otelin bu səviyyədə olmasını gözləmirdik; 3 ayrı-ayrı çarpayılı olan yataq otağı, bir oturma otağı, bir hamamı olan "Təbriz" otelindəki bu yer bizi çox xoşbəxt etdi. Sizə də məsləhət görürəm.

Səfərimiz Naxçıvan şəhərindəki tarixi abidələrdən başladı: **Yusif Küseyiroğlu** türbəsi (1162) – ucumiz bu abidə tamamilə kərpicdəndir.

**Xan sarayı** (1787) tamamilə yenilənib.

Sonra çox gözəl bir məscid **"Cümə"** məscidi idi ki, orada Adelin və Nataliyə şiələrin inandığı müqəddəs torpaqlar sayılan **Nəcəf və Kərbəla** torpaqlarından hazırlanmış **möhür** verdilər.

Sonra biz yerli məhsullar yarmarkasına baş çəkdik. İnsanlar təntənəli, tildə olduqlarına görə gözəl geyinərək açıq səma altında olan muzeyin və Naxçıvanın rəmzi olan **Möminə xatın türbəsinin** (1186) ətrafında gəzişərək şəkil çəkdirirdilər. **Möminə xatın türbəsi** Parisdəki **Eyfel qülləsi**, İstanbuldakı müqəddəs **Sofiya məbədi** və Bakıdakı **Qız qalası** kimi yerləşdiyi ərazinin simvolu hesab olunur.

Nəhayət, yenilənməkdə olan şəhər qalasını ziyarət etdik. Qalanın yanında Nuh Peyğəmbərin şərəfinə tikilmiş **Nuh məqbərəsi** yerləşir. "Naxçıvan" sözünün mənşəyi **"Nuh-Cahan"** sözündəndir.

Biz Ağrı dağını görmək məqsədilə Türkiyə sərhədinə getmək üçün şəhəri tərk etdik, bu dağ bizə sanki çox yaxın idi, onu görməyi qaçıra bilməzdim.

Sonra biz Qarabağlar kəndində yerləşən, şübhəsiz, Azərbaycan mənşəli olan **Cahan Qudi xatın abidəsini** (1319-1335) ziyarət etdik və hər bir halda bu abidə öz rəngarəngliyi ilə mənə çox cazibədar gəldi. Bu abidə mənə cod və mavirəngli keramik kərpicləri ilə Özbəkistandakı, yarım sütunlarla tikilmiş forması isə Türkmənistandakı **Mərv** abidəsini xatırlatdı. Çox minimal olaraq təmir olunan bu abidə kəndin tam ortasındadır: çox orijinal nümunədir.

Günün sonunda Həsən bizi **Duzdağ** mağarasına apardı. Bu qədim mağara ağciyər çatışmazlıqları olanlar üçün müalicə və müayinə mərkəzidir. Xəstə insanlar bura gəlir, bir neçə gecə burda yatıb nəfəs alırlar, sağaldıqdan sonra isə gedirlər. Biz bu heyrətləndirici yerdə girişdən müalicə otaqlarına qədər 500 metr uzunluqda olan dəhlizdə yeridik.

Sonra qaldığımız otelin tam qarşısında yerləşən, sonradan çay evinə çevrilmiş qızılı rəngli qübbəli, qədim **"Şərq hamamı"nı** ziyarət etmək üçün Naxçıvan şəhərinə qayıtdıq. Bura çox gözəl idi, lakin çay içmək üçün səkidə Günəşin altında olmağı üstün tutduq.

Şənbə günü biz İran sərhədi istiqamətində Ordubada yola düşdük. Yol isə Azərbaycanda heç vaxt görmədiyimiz formada – super idi, tamamilə yenilənmişdi. Sürücülər Bakıdan fərqli olaraq, çox az idi və ümumiyyətlə, ehtiyatlı idilər, bu isə bizi çox heyrətləndirirdi. Hər tərəfdə ərik ağacları çiçəkləmişdi və hava çox mülayim idi.

Ordubadda məscidin qarşısında məhəllə sakinləri musiqi sədaları altında rəqs edir, güləş tuturdular. İki personaj Novruzu səciyyələndirirdi: qırmızı ucumiz papağı ilə **"Kosa"** və başı tüksüz **"Keçəl"** rəqs edirdilər. Biz **"Qeysəriyyə"**yə heyran qaldıq, şəhər çox xoşumuza gəldi və razılaşdıq ki, bura Şəki şəhəri ilə birlikdə Azərbaycanın incisidir.

Biz əvvəllər bura səfər etmiş ingilis bələdçisi **Mark Elliotta** görə, çox mükəmməl görüntüsü olan **Əlincə qalasına** getmək üçün yola düşdük. Lakin bələdçi oğlan mənə dedi ki, ora qalxmaq üçün 2 saat vaxt lazımdır. Biz ora qalxmaq üçün özümüzlə idman ayaqqabısı da götürmüşdük. Həsən və mən yarıda dayandıq, çünki ayaqqabım sürüşürdü və mən belə bir gəzintiyə öyrəşməmişdim. Adelin isə lap yuxarıya qədər qalxdı. Onu gözləyərkən biz Nataliyə qoşulduq və mavi səmada qartalın uçmasına baxmaqdan həzz aldıq.

Naxçıvana qayıdarkən Həsən bizə **Əshabi-Kəhfi** ziyarət etməyi təklif etdi. Bura "Qurani-Kərim"in 18-ci surəsində deyildiyi kimi, müqəddəs bir yerdir. Bakının 100 kilometrliyində olan **"Beşbarmaq"** adlanan yer kimi burdakı mağaraların da ağzı açıqdır.

Bazar günü səhər otağımızı boşaltdıq, həmin yeməkxanada səhər yeməyi yedikdən sonra Batabata yola düşdük. Natali üzən adanı görmək istəyirdi. Mənzərə çox əla idi. Yüksəkliyə qalxdıq. Orada qar var idi, lakin Günəş parlayırdı, səma açıq idi. Səs-küydən uzaq sehrli bir yer idi. Göl buz tutduğuna görə üzən ada da donmuşdu. Biz Ermənistanın bir neçə kilometrliyində idik. Dünyanın bu ucundan, mənzərəsindən, ayı pəncəsinin izlərindən məst olmuşduq. Quşlar yazda olduğu kimi cəh-cəh vururdu, hava yumşaq idi, lakin geri qayıtmalı idik, çünki təyyarəmizin vaxtına az qalmışdı: $16^{00}$.

**Heydər Əliyev Muzeyi** açıq idi. Natali və mən Adelini siyasi və sosioloji ziyarətində müşayiət etdik. Heydər Əliyev ölkənin lideri olub və burda doğulub.

1921-ci ildən və birinci respublikadan bəri hətta sovet dövründə də bu region Azərbaycana bağlı olub, lakin kommunist ölkələrin təcridetmə siyasəti nəticəsində İran və Türkiyə sərhədləri bağlanmış, bu region dünyadan ayrı düşmüşdür. Ermənistanla müharibənin başlanmasından sonra heç bir ölkə ilə açıq sərhədi olmayan bu bölgə Azərbaycanın o vaxtkı Prezidenti olan Heydər Əliyevin sayəsində 90-cı illərdə blokadadan azad oldu, Türkiyə və İranla sərhədlər açıldı. Həsən bizə bu regionda yaşayan insanların çətin həyat dövrü keçirdiklərindən danışdı. Belə ki, həmin vaxtlarda Naxçıvanda nə yemək, nə elektrik, nə də maye qaz olub. Bu muzey isə **Heydər Əliyevin** şərəfinədir.

Biz qədimdə **"Buxxana"** olan, hazırda yeməkxana kimi fəaliyyət göstərən çox möhtəşəm bir yerdə ərik ağacları və Günəşin altında yemək yedik. Biz Həsəndən soruşduq ki, bir səhbaz bizim arzularımızı başqa cür necə yerinə yetirə bilər? **Mən plov yedim, Adelin Naxçıvan pivəsini, Natali isə öz kofesini içdi.**

*Biz geri dönmək üçün hava limanına yola düşdük. Mən Azərbaycanın **"İsveçrəsi"** olan bu regionda keçirdiyim həftəsonunu çox yüksək qiymətləndirdim. Hər tərəf – binalar, kəndlər, küçələr, yollar və sair gözəl və təmiz idi. Almaniya Federativ Respublikasında Berlin şəhərində olduğu kimi. Bu regionu blokadadan çıxarmaq və bütün sahələri inkişaf etdirmək üçün maliyyə vəsaiti ayrılıb. Hava çox gözəl və isti idi. Nəfəsdolusu hava aldıq. İndi artıq Bakıda mən Naxçıvanın qazlı suyu **"Sirab"** və ya **"Badamlı"** içirəm və bu, məndə xatirələr oyadır.*

**Myriam Labrousse-Mansour**
**Fransa Respublikasının**
**Azərbaycandakı Səfirliyinin əməkdaşı**

# Gündən-günə inkişaf edən Naxçıvana məhz çempionluq yaraşırdı

***Futbol üzrə Azərbaycan I divizionunun 22-ci mövsümü Naxçıvan idman tarixinə qızıl hərflərlə yazıldı. Muxtar respublikanın yeni formalaşan “Araz-Naxçıvan” futbol klubu ilk dəfə olaraq çempion adını qazandı. 30 oyunda 25 qələbə, 4 heç-heçə və yalnız 1 məğlubiyyət – bu, müstəqillik dövrü Azərbaycan futbol tarixində rekord göstəricidir. Təbii ki, bu uğura imza atanlar məşqçilər korpusu və futbolçulardır. Bu tarixi uğurun səbəbkarları ilə söhbətləşməyi qərara aldıq. Suallarımızı komandanın baş məşqçisi Əsgər Abdullayev, futbolçulardan Eşqin Quliyev, Bəxtiyar Soltanov və Tərlan Xəlilov cavablandırır.***



***– Əsgər müəllim, “Araz-Naxçıvan”dan təklif aldıqda tərəddüd etdinizmi?***

– Etiraf edim ki, bəli. Çünki komanda yeni yaranmışdı və hansı yer uğrunda mübarizə aparacağını dəqiq bilmirdim. Naxçıvana gəldim və burada olan şəraiti gördükdən sonra klubun uğurlu çıxış edəcəyinə inandım. Muxtar respublika rəhbərinin idmana göstərdiyi qayğı komandanın uğurunda müstəsna rol oynadı. Əgər bu dəstək olmasaydı, uğur qazanmaq mümkün olmayacaqdı. Bilirsiniz, Naxçıvanda hər zaman futbol olub. Məqsədimiz bura gəlib gün keçirmək yox, Naxçıvan futboluna öz töhfəmizi verməkdir. İstəyirik ki, qarşıdakı illərdə Azərbaycan millisinin heyətinə çağırılan futbolçular arasında “Araz-Naxçıvan” komandasının da oyunçuları olsun. Bu minvalla davam edərsə, qısa vaxtda Naxçıvanda futbol daha geniş inkişaf edəcək.

***– Səhv etmirəmsə, artıq bir mövsüm ərzində “Araz-Naxçıvan” milliyə futbolçu qazandırdı...***

– Bəli. Məlum olduğu kimi, qapıçımız Emil Balayev milliyə dəvət olundu. Müdafiəçimiz Tural Hümbətov isə U-21-in düşərgəsinə yollanacaq. Bu, bizim üçün müsbət haldır. Çünki futbolçularımız inandı ki, hər zaman yığmaya dəvət oluna bilərlər. Sadəcə, bunun üçün bir qədər səylə çalışmaq lazımdır.

***– Bəs digər futbolçulardan hansıları milliyə namizəd hesab edirsiniz?***

– Qoy bu suala özləri cavab versinlər (əli ilə əyləşən futbolçuları göstərir)...

***– Onda Eşqin Quliyevdən başlayaq.***

– Komandanın çempion olacağına inanırdım. Kapitan olaraq meydanda üzərimə çox iş düşür. Kapitan baş məşqçinin meydandakı köməkçisidir, onun dediklərini futbolçulara çatdırmalıdır. Müəyyən yaş qrupundan olan milli komandalarda çıxış etmişəm, indi isə məqsədim yenidən yığmaya çağırılmaqdır. Qarşımıza qoyulan hədəf çempionluq idi və buna nail olduq. Əgər çempion ola bilməsəydik, gərək karyeramızı başa vurardıq.

*Bəxtiyar Soltanov:* – Biz bura çempion olmaq üçün gəlmişik. Eşqin düz vurğuladı, kapitan kimi onun niyyəti nə olubsa, biz də onun arxasında olmuşuq. Elə deyil, Tərlan?

*Tərlan Xəlilov:* – Mən komandaya ikinci dövrədə qoşulmuşam. Lakin elə mövsüm başlayandan bəri “Araz-Naxçıvan”ın oyunlarını izləyirdim. Hətta “Şuşa” komandası ilə oynayarkən Naxçıvana gəlmişdim və azarkeşlərin komandanı necə dəstəklədiklərinin şahidi olmuşdum. Qış transfer pəncərəsində təklif gəldi və düşünmədən qəbul etdim. Səbəb isə çempionluğa oynayan komandanın futbolçusu olmaq istəyim idi.

***– Əsgər müəllim, çempionluq hər məşqçiyə qismət olmur. Sizin üçün Naxçıvanda çempion olmağın xüsusi dəyəri varmı?***

– Təbii ki. Çünki uzun illər böyük futbolsuz qalan bir bölgədə yenidən azarkeşlərə bu sevinci bəxş etməyin özü elə qələbədir. Bayaq da qeyd etdiyim kimi, bizim çempion olmağımızın əsas səbəbi muxtar respublika rəhbərinin idmana göstərdiyi diqqət və qayğıdır. Ali Məclis Sədrinin idmanın inkişafı ilə bağlı keçirdiyi müşavirədə verdiyi tapşırıqdan sonra komanda formalaşıb. Muxtar respublikanın Gənclər və İdman Nazirliyinin də əməyini və dəstəyini xüsusi vurğulamalıyam. Naxçıvanda çempion olmaq qürurvericidir. Bu cür yaradılan şəraitdə uğur qazanmamaq olmazdı. Düzdür, bu, futboldur, nə olacağı bilinmir. Lakin əsas insanda özünəgüvəncdir. Biz ilk turdan buna inandıq və sonda bacardıq. Bu çempionluq məşqçilik karyeramda qızıl hərflərlə yazıldı.

***– Bəxtiyar, bir vaxtlar səni Azərbaycanın ən istedadlı gənc futbolçusu hesab edirdilər. Sonradan karyeranda eniş yaşandı. Ancaq özünü yenidən “Araz-Naxçıvan”da göstərə bildin.***

– “Araz-Naxçıvan” mənim karyeramda böyük rol oynadı, çempionluq sevinci yaşadım. Qələbə medalını Ali Məclisin Sədri təqdim etdi. Həmin anı sözlə ifadə etmək çətindir; çox həyəcanlı idim. Belə bir uğuru Premyer-Liqada da yaşamaq istəyirik və buna nail olacağımıza əminəm.

***– İkinci dövrədə komandanın düşərgəsinə qoşulmağına baxmayaraq, uğurlu mövsüm keçirdiyini deyə bilərik. Tərlan, “qırmızı-bəyaz, çempion “Araz” şüarı xatirində necə qalıb?***

– “Araz-Naxçıvan”ın heyətində ilk oyunumu “Bakılı”ya qarşı keçirdim. Həmin an anladım ki, bu komandaya yalnız çempionluq yaraşır. Çünki azarkeşlərimiz məni fərqli qarşıladılar. Bu şüarı həmin oyunda yaddaşıma həkk etdim və kuboku aldıqdan sonra uca səslə “qırmızı-bəyaz, çempion “Araz” sözlərini dedim. Etiraf edim ki, ikinci dövrənin ilk 2-3 matçında özümü yaxşı tərəfdən göstərə bilmədim. Bunu Əsgər müəllim də təsdiq edər...

*Əsgər Abdullayev:* – Futbolçu o zaman uğur qazanır ki, o, meydandakı səhvini başa düşür, anlayır və öz üzərində çalışır. Tərlan bu cür futbolçulardandır.

***– Əsgər müəllim, geridə qalan mövsümü qısa olaraq necə şərh edərdiniz?***

– Mən hər zaman demişəm və indi də deyirəm: bu çempionatda “Araz-Naxçıvan”ın yeganə rəqibi elə “Araz-Naxçıvan” olub. Çünki biz bütün oyunlara eyni tərzdə hazırlaşmışıq, rəqiblər arasında fərq qoymamışıq. Düşünürəm ki, çempion olmaq istəyən komanda bunu etməlidir. Mövsümə iki qələbə ilə başladıqdan sonra hamı bizim gücümüzə bələd oldu və ilk xal itkimizi “Mil-Muğan”la oyunda aldıq. Bundan sonra düşündüm ki, bu gün İmişli klubu bizə qarşı belə oynayırsa, sabah başqaları fərqli olacaq. İstirahətsiz olaraq davam etdik və sonda uğur üzümüzə güldü. Təsəvvür edin, autsayderlər qrupunda yer alan komandalar belə, bizə qarşı ciddi hazırlaşırdılar. Çünki bizdən alacaqları hər hansı xal və ya xallar onları gündəmdə saxlayacaqdı. Mövsümün qısa analizinə gəlincə, asan oyunumuz olmadı. Hətta son turda qazandığımız 9:0 hesablı qələbə belə, çətin idi. İlk 40 dəqiqədə rəqib müqavimət göstərdi.

***– Bəs futbolçular mövsümü necə dəyərləndirərdilər?***

*Eşqin Quliyev:* – Komandanı meydana kapitan kimi çıxarmaq oyunçuda məsuliyyəti artırır. Çünki hər hansı uğursuzluqda səbəbkarlardan biri də sən olursan. Hər uğurun arxasında mübariz ruh, çalışmaq durur. Biz mövsüm ərzində buna sadiq qaldıq və çempion olduq.

*Bəxtiyar Soltanov:* – Mövsümdə bütün matçlarımız gərgin keçdi, elə oyunlar oldu ki, məğlub durumda olmağımıza baxmayaraq sonradan qələbə qazandıq. Son dəqiqələrdə vurduğumuz qollar oldu. Hər hansı bir klub çətinlik çəkməsə, o zaman uğur da qazana bilməz.

*Tərlan Xəlilov:* – Mənim üçün ən çətin oyun “Neftçala” ilə öz meydanımızda heç-heçə etdiyimiz görüş idi. Biz onlardan qat-qat üstün oyun sərgilədik, lakin meydanda azlıqda qalmağımız bir qədər oyunumuza mənfi təsir göstərdi. Bu görüşü ona görə çətin hesab edirəm ki, qələbəni əldən verdik. Çox istəyirdik, azarkeşlərimizi 3 xalla sevindirək. Bu matçdan da çətin oyunlar keçirdik. Mövsüm ərzində “Araz-Naxçıvan” ən gözəl oyununu sonuncu görüşdə göstərdi.

***– Bundan sonrakı planlarınız nədir?***

*Əsgər Abdullayev:* – İlk olaraq, qarşıdakı mövsümə ciddi şəkildə hazırlaşmaq və bu uğuru Premyer-Liqada da təkrarlamaq. Sizə deyim ki, “Energetik”lə matçdan sonra artıq hazırlıqlara başlamışıq. İndidən orda necə oynayacağımızı, rəqiblərin hansı tərz oyun üslubuna üstünlük verdiklərini müzakirə edirik. Sonda muxtar respublika rəhbərinə dərin minnətdarlığımızı bildiririk. Gündən-günə inkişaf edən Naxçıvan Muxtar Respublikasına məhz çempionluq yaraşırdı. Naxçıvan bütün sahələrdə birincidir. Futbolda da bu, belə olmalı idi. İndi qarşımıza qoyduğumuz məqsəd Premyer-Liqada birinci olmaqdır.

**Söhbətləşdi: Ceyhun MƏMMƏDOV**

# Voleybol turniri başa çatıb

İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş voleybol üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika turnirinə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi turnirin qalibi Sədərək komandası olub.



8 komandanın dairəvi sistem üzrə 2 yarımqrupda mübarizə apardığı yarışda Babək, Sədərək, Culfa və Şahbuz voleybolçuları növbəti mərhələyə adlarını yazdırmışdılar. Bu mərhələdə daha yaxşı təsir bağışlayan Sədərək və Babək komandaları finalda qarşılaşdılar. İlk olaraq meydana 3-cü yer uğrunda mübarizə üçün Culfa və Şahbuz komandaları çıxdılar. 3:1 hesabı ilə qələbə qazanan culfalılar turniri üçüncü pillədə başa vurdular. Final qarşılaşmasında isə Sədərək təmsilçiləri 3:0 hesabı ilə rəqibini üstələməyi bacardılar.

Sonda qaliblərə diplom və hədiyyələr təqdim olundu.

**Xəbərlər şöbəsi**

# Maarifləndirici tədbir

***Culfa rayonunda Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun və Culfa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə “Pensiya siyasəti, sosial sığorta qanunvericiliyi, sosial sığorta sistemində fərdi uçotun tətbiqi” mövzusunda maarifləndirici tədbir keçirilmişdir.***

Tədbiri Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Nazim İmaməliyev açmışdır.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun şöbə müdirləri Yaşar Məmmədov, İsmayıl Həsənov, baş məsləhətçi Ağa Həsənov çıxış edərək sosial sığorta qanunvericiliyi, məcburi dövlət sosial sığorta haqlarının onlayn ödəmə sistemi vasitəsilə ödənilməsi, sosial sığorta sistemində fərdi uçotun tətbiqi ilə bağlı əmək pensiyaları haqqında qanunvericiliyin tətbiqi, pensiyaların təyinatı və ödənişinin müasir üsullarla həyata keçirilməsi barədə tədbir iştirakçılarına məlumat vermişlər.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən 22 adda elektron xidmət göstərilməsi məqsədilə fondun **www.dsmf.nakhchivan.az** saytında müvafiq bölmələr yaradılmışdır. Belə elektron xidmətlərindən biri də məcburi dövlət sosial sığorta haqlarının onlayn ödənilməsi xidmətidir. Bu sayta daxil olmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və torpaq mülkiyyətçiləri plastik kartlar vasitəsilə məcburi dövlət sosial sığorta haqlarını tam şəkildə ödəyə bilərlər.

Sonra Culfa rayonunda sığorta-pensiya sistemi ilə əlaqədar görülən işlər haqqında Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Culfa Rayon Şöbəsinin müdiri Vüsal Məmmədzadə tədbir iştirakçılarına məlumat vermişdir.

Sonda yeni əmək fəaliyyətinə başlayan bir qrup vətəndaşa onların fərdi uçot sistemində qeydiyyata alındığını və onlar üçün fərdi şəxsi hesab açıldığını təsdiq edən sosial sığorta şəhadətnaməsi verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# “Mən Naxçıvanı tanıyıram” bilik olimpiadasının bağlanış mərasimi keçirilib



***Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının təşkilatçılığı ilə keçirilən “Mən Naxçıvanı tanıyıram” intellektual bilik olimpiadasının bağlanış mərasimi olub.***

Mərasimi universitetin rektoru, professor Saleh Məhərrəmov ölkədə aparılan gənclər siyasətinin uğurlarından bəhs edərək gənclərə göstərilən dövlət qayğısından danışıb. Rektor “Mən Naxçıvanı tanıyıram” bilik olimpiadasının tələbə-gənclərin intellektual potensialının üzə çıxarılması, onların Naxçıvan haqqında biliklərinin daha da artırılması, vətənpərvərlik ruhunda tərbiyəsi baxımından əhəmiyyətli olduğunu bildirib.

Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əməkdaşı Nurlan Fətəliyev bu cür tədbirlərin keçirilməsinin gənclərin asudə vaxtlarının səmərəli təşkili və onların intellektual səviyyələrinin artırılması baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Universitetin Tələbə-Gənclər Təşkilatının sədri, doktorant Arzu Abdullayev qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş bilik olimpiadasının keçirilməsi muxtar respublikanın təbliği və tanıdılması, gənclərin bu sahədəki biliklərinin yoxlanılması baxımından olduqca böyük əhəmiyyət kəsb edir.

Tədbirin sonunda final mərhələsində iştirak etmiş tələbələrə sertifikatlar, ən yaxşı nəticə göstərmiş 10 iştirakçıya isə diplom və hədiyyələr təqdim olunub.

**Mina QASIMOVA**

### İtmişdir

İmanov Yamiddin İlqar oğlunun adına olan sürücülük vəsiqəsi və tələbə bileti itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhər sakini Qasımov Elmar Seyfəddin oğlunun adına olan AO-0693740 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

“Şəfa” Özəl Tibb Mərkəzinin direktoru Əmir Kərimov və mərkəzin kollektivi Qasım və Esmira Əliyevlərə, əzizləri

**LƏZİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 432